AQRAR TƏDQİQATLAR
MƏRKƏZİ

# Aqrar Tədqiqatlar Mərkəzinin
# 2023-cü il üzrə
# maliyyə fəaliyyətinə dair

# AUDİT HESABATI

Bakı 2025

# Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi Publik Hüquqi Şəxs

**Maliyyə hesabatları və Müstəqil Auditor Rəyi**

*31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə*

**BAKI – 2025**

## MÜNDƏRİCAT

**Səhifə**


Maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı müəssisə rəhbərliyinin məsuliyyətinin bəyanatı---3

Müstəqil Auditorun Hesabatı---4-5

31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə Maliyyə Hesabatları---6-10

Maliyyə vəziyyəti haqqında hesabat---6

Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat---7

Xalis aktivlər / kapitalda dəyişikliklər haqqında hesabat---8

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat---9-10

Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər---11-26

Təklif və tövsiyyələr---27-28

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİNƏ GÖRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA BƏYANAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**

Bu bəyanat "**Aqrar Tədqiqatlar Mərkəzi" Publik Hüquqi Şəxs**"- in (bundan sonra-Mərkəz) Maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2023-cü il tarixinə Mərkəzin maliyyə vəziyyətini, həmin ildə başa çatmış il üzrə əməliyyat nəticələrini, xalis aktivlər/kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:**

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS-na müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Mərkəzin işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanması.

**Rəhbərlik aşağıdakı məsələlər üzrə cavabdehdir:**

- Mərkəz daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Mərkəz maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün hazırlanması və Mərkəzin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Mərkəzin aktivlərinin mühafizə edilməsinin təşkil olunması;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması

**31 dekabr 2023-cü il tarixində bitən il üzrə maliyyə hesabatları 20 aprel 2024-cü il tarixində Mərkəzin Rəbərliyi tərəfindən təsdiq edilmişdir.**

**Rəhbərliyin adından:**

| | |
|---|---|
| **Rəşad Hüseynov** | **Gülnar Hüseynova** |
| **Direktor** | **Baş mütəxəssis-mühasib** |
| **(M.Y)** | **(M.Y)** |

AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN TABELİYİNDƏ "AQRAR TƏDQİQATLAR MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXS

AUDITOR

**AZƏRUÇOT**
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT

Azərbaycan, Bakı şəhəri, AZ 1025
Babək prospekti, 12A, blok C, mərtəbə 4, qapı 2
Tel: +994 12 460 71 12
Mob:+994 50 800 69 59
E-mail: azerucot@gmail.com
Web: www.azerucot.az

## MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Aqrar Tədqiqatlar Mərkəzi" Publik Hüquqi Şəxs-in Rəhbərliyinə:**

**Rəy**

Biz, "**Aqrar Tədqiqatlar Mərkəzi" Publik Hüquqi Şəxs"**- in (bundan sonra-Mərkəz) 31 dekabr 2023-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat, xalis aktivlər/kapitalda dəyişikliklər haqqında hesabat, pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

**Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Mərkəzin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə fəaliyyətinin nəticələrini, xalis aktivlərdə/kapitalda dəyişiklikləri və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin (MBESŞ məcəllesi) tələblərinə uyğun olaraq Mərkəzdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcədə MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Hesab edirik ki,əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə Hesabatları üzrə Rəhbərliyin və idarəetmə Səlahiyyəti verilmiş şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə və maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya xətalardan qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Mərkəzi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Mərkəzin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumtların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İdarəetməyə məsul şəxslər Mərkəzin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vertmir.Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**Direktor-Auditor** **Eldar Təhməzov**

Azərbaycan Respublikasının

Auditorlar Palatası İCAZƏ: AT/238 22.11.2021-ci il

11 fevral 2025-ci il

# AQRAR TƏDQİQATLAR MƏRKƏZİ PUBLİK HÜQUQİ ŞƏXS

## Maliyyə vəziyyəti haqqında hesabat

## 31 dekabr 2023-cü il tarixə

*Ölçü vahidi: manat*

| Bölmə/ maddə | Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №si | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | **AKTİVLƏR** | | | | | |
| 1 | **Qısamüddətli aktivlər** | **1** | | | | |
| 10 | Pul vəsaitləri və onların ekvivalentləri | **1.1** | 283 386 | | 367 387 | |
| 11 | Qısamüddətli debitor borcları | | | | | |
| 12 | Ehtiyatlar | **1.2** | 10 364 | | 12 529 | |
| 14 | Sair qısamüddətli aktivlər | **1.3** | 612 | | 1 223 | |
| | **Cəmi qısamüddətli aktivlər** | | | **294 362** | | **381 139** |
| 2 | **Uzunmüddətli aktivlər** | **2** | | | | |
| 20 | Uzunmüddətli debitor borcları | | | | | |
| 21 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | | | |
| 22 | Sair uzunmüddətli maliyyə aktivləri | | | | | |
| 23 | Torpaq, tikili və avadanlıqlar və digər uzunmüddətli aktivlər | **2.1** | 528 871 | | 747 074 | |
| 24 | Qeyri-maddi aktivlər | **2.2** | 2 955 050 | | 3 283 389 | |
| 26 | Təxirə salınmış vergi aktivləri | | | | | |
| 27 | Sair uzunmüddətli aktivlər | | | | | |
| | **Cəmi uzunmüddətli aktivlər** | | | **3 483 921** | | **4 030 463** |
| | **CƏMİ AKTİVLƏR** | | | **3 778 283** | | **4 411 602** |
| | **ÖHDƏLİKLƏR** | | | | | |
| 3 | **Qısamüddətli öhdəliklər** | **3** | | | | |
| 30 | Qısamüddətli kreditor borcları | **3.1** | 408 579 | | 253 925 | |
| 31 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | | |
| 32 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | | | |
| 33 | Sair qısamüddətli öhdəliklər | **3.2** | 612 | | 1 479 | |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | | **409 191** | | **255 404** |
| 4 | **Uzunmüddətli öhdəliklər** | **4** | | | | |
| 40 | Uzunmüddətli kreditor borcları | | | | | |
| 41 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | | |
| 42 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | | | |
| 43 | Sair uzunmüddətli öhdəliklər | | | | | |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | | | | |
| | **Cəmi öhdəliklər** | | | | | **255 404** |
| 5 | **Xalis Aktivlər (Kapital)** | **5** | | | | |
| 50 | Ödənilmiş nizamnamə (nominal) kapitalı | **5.1** | 1 000 000 | | 1 000 000 | |
| 53 | Kapital ehtiyatları | **5.2** | 3 494 600 | | 4 042 993 | |
| 54 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | **5.3** | (1 125 508) | | (886 794) | |
| | **Cəmi xalis aktivlər (kapital)** | | | **3 369 092** | **3 689 890** | **4 156 198** |
| | **Cəmi xalis aktivlər (kapital) və öhdəliklər** | | | **3 778 283** | | **4 411 602** |

**Rəhbərliyin adından:**

**Rəşad Hüseynov**
**Direktor**
**(M.Y)**

**Gülnar Hüseynova**
**Baş mütəxəssis-mühasib**
**(M.Y)**

## AQRAR TƏDQİQATLAR MƏRKƏZİ PUBLİK HÜQUQİ ŞƏXS

### Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat

### 31 dekabr 2023-cü il tarixə

*Ölçü vahidi: manat*

| Bölmə/ maddə | Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin № si | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1 | **Gəlirlər** | 6 | | | | |
| | Vergilər və məcburi ödənişlər üzrə qeyri-kommersiya gəlirləri | | | | | |
| | Birja əməliyyatlarından gəlirlər | 6 | 677 776 | | 1 861 062 | |
| | Qeyri-birja əməliyyatlarından gəlirlər | 6 | 1 031 792 | | 1 038 806 | |
| | Sair gəlirlər | | | | | |
| | **Cəmi gəlirlər** | | **1 709 568** | | | **2 899 868** |
| 2 | **Xərclər** | **7** | | | | |
| | Bitməmiş istehsalat və hazır məhsul ehtiyatlarındakı azalmalar(artımlar) | | | | | |
| | İstifadə edilmiş xammalın dəyəri | | | | | |
| | İstifadə edilmiş materialların dəyəri | 7 | 20 528 | | 17 514 | |
| | Əmək haqqı, əmək haqqına görə ayırmalar və işçilərlə bağlı digər xərclər | 7 | 1 537 456 | | 2 087 177 | |
| | Aktivlərin amortizasiya xərcləri və qiymətdən düşmə zərərləri | 7 | 546 542 | | 600 061 | |
| | Maliyyə yardımları və sair transfer ödənişləri üzrə xərclər | | | | | |
| | Sosial müavinətlər üzrə xərclər | | | | | |
| | Sair xərclər | 7 | 346 934 | | 1442 474 | |
| **O Cümlədən** | Xaricdən maliyyələşdirilən elmi-tədqiqat işləri üzrə xərclər[1] | | | | | |
| | Xaricdən maliyyələşdirilən elmi-tədqiqat işləri üzrə xərclər istisna olmaqla sair əməliyyat xərcləri | | | | | |
| | Maliyyə xərcləri | 8 | 1 263 | | | |
| | **Cəmi Xərclər** | | **2 452 723** | | | **4 147 225** |
| 3 | **Mənfəət (zərər)** | **9** | **(743 154)** | | | **(1 247 357)** |
| | Ümumi mənfəət (zərər) | 9 | **(743 154)** | | | **(1 247 357)** |
| | Asılı müəssisələrin mənfəətində(zərərində) pay | | | | | |
| | **Mənfəət (zərər)** | **9** | **(743 154)** | | | **(1 247 357)** |
| | O cümlədən sahibkarlıq fəaliyyətindən əldə edilən mənfəət (zərər) | | | | | |
| | **Mənfəət vergisi** | | | | | |
| | **Xalis mənfəət (zərər)** | 9 | **(743 154)** | | | **(1 247 357)** |

**Rəhbərliyin adından:**

**Rəşad Hüseynov**
**Direktor**

(M.Y)

**Gülnar Hüseynova**
**Baş mütəxəssis-mühasib**

(M.Y)

## Xalis aktivlər / kapitalda dəyişikliklər haqqında hesabat

### 31 dekabr 2023-cü il tarixə

*Ölçü vahidi: manat*

| Göstəricilər | Uçot siyasəti və izahlı qeydlərin №si | Ödənilmiş nizamnamə (nominal) kapital | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **Əvvəlki hesabat dövrünün sonuna olan qalıq** | 5 | 1000 000 | 4 042 992 | (886 794) | 4 156 198 |
| Hesabat dövrünün əvvəlinə uçot siyasətində dəyişikliklər və səhvlər | | | | | |
| **Hesabat dövrü üzrə xalis aktivlərdə (kapitalda) dəyişikliklər** | | | | | |
| Əmlakın yenidən qiymətləndirilməsindən qazanc və itkilər | | | | | |
| İnvestisiyaların yenidən qiymətləndirilməsindən qazanc və itkilər | | | | | |
| Xarici ölkələrdə aparılan fəaliyyətlərindən yaranan məzənnə fərqi | | | | | |
| Xalis aktivlərdə (kapitalda) artma (azalma) | 5 | | (548 392) | (238 714) | (787 106) |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | |
| Hesabat dövrü üzrə mənfəət (zərər) | | | | | |
| Hesabat dövrü üzrə xalis aktivlərdə (kapitalda) cəmi dəyişikliklər | | | | | |
| **Hesabat dövrünün sonuna olan qalıq** | 5 | 1000 000 | 3 494 600 | (1 125 508) | 3 369 092 |

**Rəhbərliyin adından:**

**Rəşad Hüseynov**

**Direktor**

(M.Y)

**Gülnar Hüseynova**

**Baş mütəxəssis-mühasib**

(M.Y)

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

## 31 dekabr 2023-cü il tarixə

*Ölçü vahidi: manat*

| Göstəricilər | Uçot siyasəti və izahlı qeydlərin №si | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **Əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| Pul vəsaitlərinin daxilolmaları: | | | |
| Vergilər, rüsumlar və cərimələr nəticəsində yaranan pul vəsaiti daxilolmaları | | | 163 280 |
| Mal, iş və xidmətlərin satışından yaranan pul vəsaitlərinin daxilolmaları | 1.1 | 799 776 | 1 861 062 |
| Qrantlar və ya transferlər və büdcə təşkilatı tərəfindən həyata keçirilən digər vəsaitləri və büdcə ayırmaları nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | 1.1 | 1 031 792 | 1 033 014 |
| Royalti, haqlar, komisyon yığımları və digər gəlirlərdən yaranan pul vəsaitlərinin daxilolması | | | |
| CƏMİ DAXİLOLMALAR | | **1 831 568** | **3 057 356** |
| Pul vəsaitlərinin xaricolmaları: | | | |
| Fəaliyyətin maliyyələşdirilməsi üçün büdcə təşkilatının digər təsərrüfat subyektlərinə pul vəsaitlərinin ödənilməsi (kreditlər istisna olmaqla) | | | |
| Mal, iş və xidmətlərə görə təchizatçılara pul vəsaitlərinin ödənişləri | 1.1 | 323 379 | 1 095 403 |
| İşçilərə və onların adından pul vəsaitlərinin ödənişləri | 1.1 | 1 590 927 | 2 033 705 |
| Sosial müavinətlər üzrə pul vəsaitlərinin ödənişləri | | | |
| Sığorta şirkətinin sığorta mükafatları və ya iddialar, annuitetlər və digər müavinət siyasətləri üzrə pul vəsaitlərinin ödənişləri | | | |
| Əməliyyat fəaliyyəti ilə əlaqədar olan müvafiq vergilərin, tədiyələrin ödənilməsi ilə bağlı pul vəsaitlərinin ödənişləri | | | |
| Məhkəmə prosesləri ilə əlaqədar pul vəsaitlərinin ödənişləri | | | |
| Əməliyyat fəaliyyəti ilə əlaqədar digər pul vəsaitlərinin ödənişləri | | | |
| Büdcəyə qaytarılan və silinən pul vəsaitləri | | | |
| CƏMİ XARİCOLMALAR | 1.1 | **1 914 306** | **3 129 108** |
| **Əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **1.1** | **(82 738)** | **(71 752)** |
| **İnvestisiya fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| Pul vəsaitlərinin daxilolmaları: | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi və digər uzunmüddətli aktivlərin satılmasından əldə olunan pul vəsaitləri | | | |
| Digər təsərrüfat subyektlərinin pay və ya borc alətlərinin və birgə təşkilatlarda iştirak paylarının satılmasından yaranan pul vəsaitlərinin daxilolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və dilinq və ya ticarət məqsədləri ucun saxlanılan alətlər üzrə pul vəsaitlərinin daxilolmaları istisna olmaqla) | | | |
| Digər tərəflərə təqdim edilmiş avansların və kreditlərin qaytarılmasından pul vəsaitlərinin daxilolmaları (maliyyə institutlarının avans və kreditləri istisna olmaqla) | | | |
| Müqavilələrin dilinq və ya ticarət məqsədləri üçün saxlanıldığı və daxilolmaların maliyyələşdirmə üzrə fəaliyyət kimi təsnifləşdirildiyi hallar istisna olmaqla, fyucers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin daxilolmaları | | | |
| CƏMİ DAXİLOLMALAR | | | |
| Pul vəsaitlərinin xaricolmaları: | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi və digər uzunmüddətli aktivlərin əldə edilməsi məqsədilə pul vəsaitlərinin ödənişləri. Bu ödənişlər təsərrüfat subyekti tərəfindən öz gücünə inşa edilmiş torpaq, tikili və avadanlıqlar, habelə layihələr üzrə kapitallaşdırılan xərclərə aid ödənişləri daxil edir | 1.1 | | 42 509 |
| Digər təsərrüfat subyektlərinin pay və ya borc alətlərinin və birgə təşkilatlarda iştirak paylarının əldə edilməsi üçün ödənilən pul vəsaitlərinin xaricolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və dilinq və ya ticarət məqsədləri ucun saxlanılan alətlər üzrə pul vəsaitlərinin xaricolmaları istisna olmaqla) | | | |

| | | | |
|---|---|---|---|
| Digər tərəflərə təqdim edilən avanslar və borc vəsaitləri (dövlət maliyyə qurumlarına təqdim edilən avanslar və borc vəsaitləri istisna olmaqla) | | | |
| Xarici valyutada qiymətli kağızların alınması | | | |
| Müqavilələrin dilinq və ya ticarət məqsədləri üçün saxlanıldığı və ödənişlərin maliyyələşdirmə fəaliyyəti kimi təsnifləşdirildiyi hallar istisna olmaqla, fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin ödənişləri | | | |
| CƏMİ XARİCOLMALAR | | | **42 509** |
| **İnvestisiya fəaliyyətlərindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **1.1** | **0** | **(42 509)** |
| **Maliyyələşdirmə fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| İstiqrazların, borc sənədlərinin, veksellərin, istiqraz vərəqələrinin, girov (ipoteka) kağızlarının və digər qısamüddətli və uzunmüddətli istiqrazların buraxılmasından pul vəsaitlərinin daxilolmaları | | | |
| Borc şəklində alınmış məbləğlərə görə daxilolmalar | | | |
| CƏMİ DAXİLOLMALAR | | | |
| Pul vəsaitlərinin xaricolmaları | | | |
| Hökumətə və ya onun adından müvafiq səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanına verilən dividendlər, bölüşdürmələrə görə pul vəsaitlərinin xaricolmaları | | | |
| Maliyyə icarəsi üzrə yerinə yetirilməmiş öhdəliyin qalıq məbləğinin azaldılması üçün icarəyə götürən tərəfindən pul vəsaitlərinin ödənişləri | | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| CƏMİ XARİCOLMALAR | | | |
| **Maliyyələşdirmə fəaliyyətlərindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması) | **1.1** | **(82 738)** | **(114 261)** |
| Pul vəsaitləri və onların ekvivalentləri üzrə ilin əvvəlinə olan qalıq | **1.1** | **367 387** | **481 648** |
| Xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | **1.1** | **(1 263)** | |
| **Pul vəsaitləri və onların ekvivalentləri üzrə ilin sonuna olan qalıq** | **1.1** | **283 386** | **367 387** |

**Rəhbərliyin adından:**

**Rəşad Hüseynov**

**Direktor**

**(M.Y)**

AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN TABELİYİNDƏ "AQRAR TƏDQİQATLAR MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXS

**Gülnar Hüseynova**

**Baş mütəxəssis-mühasib**

**(M.Y)**

## ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ VƏ İZAHLI QEYDLƏR

**31 dekabr 2023-cü il üzrə tamamlanan il üzrə**

## UÇOT SİYASƏTLƏRİ.

### 1. Giriş

**Mərkəzhaqqında məlumat.**

**"Aqrar Tədqiqatlar Mərkəzi" Publik Hüquqi Şəxsi** (bundan sonra - Mərkəz) "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 89 nömrəli Fərmanına əsasən aqrar sahədə elmi tədqiqat institutlarının fəaliyyətinin gücləndirilməsi, təhlili, qiymətləndirmə və proqnozlaşdırmanın aparılması, aqrar-sənaye sahələri üzrə müxtəlif xidmətlərin yerinə yetirilməsi, kənd təsərrüfatının inkişafı ilə bağlı informasiya ehtiyatlarının yaradılması, proqram və layihələrin hazırlanması, sahənin strateji planlaşdırılması və innovativ inkişafının təmin edilməsi məqsədi ilə yaradılmış və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki qurumdur.

Mərkəz öz fəaliyyətində müstəqildir və Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları və bu Nizamnaməni rəhbər tutur.

Mərkəzin Nizamnaməsi Azərbaycan Respublikası Vergilər Nazirliyinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 11.11.1997-ci il tarixində 1300663941 nömrə ilə qeydiyyata alınmışdır.

Mərkəz Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 27.09.2023-cü il tarixində Dövlət Reysterindən Çıxarış almışdır. Çıxarışın nömrəsi 2301020096154500, VÖEN nömrəsi 1300663941

Mərkəzin rəsmi adı aşağıdakı kimidir:

Tam halda - "Aqrar Tədqiqatlar Mərkəzi" Publik Hüquqi Şəxs;

"Aqrar Tədqiqatlar Mərkəzi " PHŞ;

Mərkəzin məqsədi aqrar sahədə elmi tədqiqat institutlarının fəaliyyətinin gücləndirilməsi, təhlili, qiymətləndirmə və proqnozlaşdırmanın aparılması, aqrar-sənaye sahələri üzrə müxtəlif xidmətlərin yerinə yetirilməsi, kənd təsərrüfatının inkişafı ilə bağlı informasiya ehtiyatlarının yaradılması, proqram və layihələrin hazırlanması, sahənin strateji planlaşdırılması və innovativ inkişafının təmin edilməsindən ibarətdir.

Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:

- kənd təsərrüfatının və kənd yerlərinin inkişafı ilə bağlı təhlillərin və elmi tədqiqatların aparılması, analitik məlumat bazasının və informasiya sistemlərinin yaradılması, proqram və layihələrin hazırlanması, sahənin strateji planlaşdırılmasının və innovativ inkişafının təmin edilməsi məqsədi ilə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

- kənd təsərrüfatının və kənd yerlərinin inkişafı və aqrar siyasətin təkmilləşdirilməsi məsələləri ilə bağlı təhlillər aparmaq, elmi tədqiqat və analitik-informasiya xidmətləri göstərmək;

- kənd təsərrüfatının müxtəlif sahələri və ümumi göstəriciləri üzrə inkişaf trendlərinə dair təhlillər aparmaq və hesabatlar hazırlamaq;

- kənd təsərrüfatı sahəsində və ərzaq təhlükəsizliyi ilə bağlı risklərin idarəedilməsi ilə bağlı informasiya bazasını təmin etmək və müvafiq təhlillər aparmaq;

- kənd təsərrüfatının və kənd yerlərinin inkişafı ilə bağlı proqnozların, strateji planlaşdırmanın aparılmasını təmin etmək, konsepsiya, proqram və digər layihələrin hazırlanmasında, habelə monitorinq və qiymətləndirilməsində iştirak etmək;

- fermerlərə məsləhət-informasiya xidmətlərinin göstərilməsi üçün lazımi məlumat və metodiki baza yaratmaq, innovativ həllərin tətbiqi ilə bağlı təklif etmək və interaktiv xidmətlərin göstərilməsi üzrə tədbirlər görmək;

- Aqrar sahədə elmi tədqiqat institutlarının fəaliyyətinin gücləndirilməsi ilə bağlı təkliflər hazırlamaq və səlahiyyətləri daxilində müvafiq tədbirlər görmək;

- fəaliyyət istiqamətlərinə uyğun olaraq doktorantura və dissertantura yolu ilə elmi kadrlar və mütəxəssislər hazırlamaq;

- fəaliyyətini dövlət-özəl sektor tərəfdaşlığı prinsipi əsasında təşkil etmək məqsədi ilə tədbirlər görmək;

Mərkəzin nizamnamə fondu 1.000.000 manatdır və 100% Dövlətə məxsusdur.

Mərkəzin əmlakı nizamnamə fondundan, ona təsisçi tərəfindən verilmiş digər əmlakdan, habelə dövlət və ya yerli büdcələrdən ayrılan vəsaitlərdən, fəaliyyət istiqamətlərinə uyğun olaraq görülən işlərdən, operatoru olduğu informasiya sistemləri vasitəsilə verilən xidmətlər, habelə göstərilən digər xidmətlərdən və məhsulların satışından əldə edilən, kraudfandinq yolu ilə daxilolmalardan, ianələrdən, kredit agentlikləri və fondlar tərəfindən ayrılan vəsaitlər, qrantlardan, donorlar tərəfindən göstərilən maliyyə dəstəyi və bu Nizamnamə ilə müəyyən edilən məqsədlər ilə fəaliyyətə qoşulmaq istəyən büdcədənkənar fondların və digər təşkilatların hesabına formalaşır.

Əmlak üzərində sahiblik, istifadə və sərəncam vermək hüquqlarının həyata keçirilməsi Nazirliyin bu Nizamnamə ilə müəyyən edilən səlahiyyətləri nəzərə alınmaqla Mərkəz tərəfindən həyata keçirilir.

Mərkəz müflis elan oluna bilməz.

Mərkəzin məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri dövlət tərəfindən tənzimlənən qiymətlər deyildir. Qiymətlər göstərilən xidmətlərin növündən və həcmindən asılı olaraq orta bazar qiymətləri əsas götürülərək Mərkəz tərəfindən oxşar layihələr üzrə vahid yanaşma prinsipi əsasında təyin edilir.

Mərkəz bu Nizamnaməyə əsasən göstərdiyi xidmətlər nəticəsində daşınar və daşınmaz əmlak, o cümlədən bina, avadanlıq, yeni texnologiya, nəqliyyat vasitələri əldə edə bilər.

Mərkəz qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra fəaliyyətindən əldə edilmiş mənfəəti üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

Mərkəzin əldə etdiyi əmlak onun mülkiyyətinə daxil edilir.

**Mərkəzin hüquqi ünvanı , strukturu, işçi sayı və cavabdeh şəxsləri barədə məlumat.**

Hüquqi ünvanı (hazırki) :

AZ 1025, Bakı şəhəri, Xətai rayonu,Süleyman Vəzirov küçəsi, 91.

Mərkəzin 31 dekabr 2023-ci il tarixinə strukturuna müvafiq olaraq 59 nəfər işçisi olmuşdur.

Audit ilə əhatə olunan dövr üzrə maliyyə hesabatlarının hazırlanmasına aşağıdakı şəxslər cavabdeh olmuşlar:

1. Direktor – Firdovsi Fikrət oğlu Fikrətzadə - 01 aprel 2019-cu il tarixindən 10 iyul 2024-cü il tarixinədək.
2. İnzibati idarəetmə departamentinin baş mütəxəssisi-mühasibi – Gülnar Valeh qızı Hüseynova – 03 iyul 2018-ci il tarixindən bu günədək;

**2. Əməliyyat mühiti**

Azərbaycan Respublikası inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas olan xüsusiyyətlərə malikdir. Son illər ölkədə güclü iqtisadi artım müşahidə olunmuşdur. Lakin Kommersiya sektoruna təsir göstərə biləcək bütün tendensiyaları, eləcə də onların Mərkəzin maliyyə vəziyyətinə təsirini (əgər varsa) qabaqcadan proqnozlaşdırmaq mümkün deyil.

Azərbaycan Respublikasının vergi, sosial sığorta, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır.

Azərbaycan Respublikasında iqtisadi inkişafın gələcək perspektivləri Hökümətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar islahatların effektivliyindən, eləcə də vergi, sosial sığorta, hüquqi, normativ və siyasi sistemin inkişafından xeyli dərəcədə asılıdır.

Rəhbərlik, mövcud şəraitdə Mərkəzin fasiləsiz fəaliyyətini və inkişafını təmin etmək üçün bütün lazımı tədbirlərin görüldüyünü hesab edir.

**3. Uçot siyasətinin təqdim olunması**

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

- **Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri.**

- *"Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"* nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 30 yanvar 2017-ci il tarixli Q-01 nömrəli *və "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması Qaydası"*nın təsdiq edilməsi haqqında 18 yanvar 2016-cı il tarixlli Q-02 nömrəli Qərarlarına əsasən tənzimlənir.

- **Valyutaların yenidən hesablanması.**

(a) Funksional valyuta və hesabat valyutası – Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur. Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Manatı ilə ("AZN") əks olunmuşdur. Azərbaycan Manatı Azərbaycan Respublikasının rəsmi valyutasıdır.

Monetar maddələr mövcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödənilən aktivlər və öhdəliklərdir. Monetar maddələrin nəğd əldə edilən vəsaitləri, ssudaları, ödənilməli olan məbləğləri, uzunmüddətli borcları, təminatları, işçi müavinətləri öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edir.

Qeyri-monetar maddələrə səhmlər, ehtiyatlar, əvvəlcədən ödənilmiş gələcək dövrün xərcləri əmlak,torpaq,tikili və avadanlıqlar və qeyri-maddi aktivlər daxil edilir.

### 4. Binalar və avadanlıqlar (Əsas vəsaitlər)

Əsas vəsaitlər elə maddi aktivlərdir ki:

(a) Mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir;

(b) Bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.

Torpaq və binalara əsasən inzibati bina, istehsalat binası və ofis sahələri daxildir. Hesabat dövrünün sonuna torpaq və binalar bazar qiymətlərinə müvafiq surətdə ədalətli dəyər üzrə yenidən qiymətləndirilməlidir.

Ədalətli dəyər-yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindən asılı olmayan tərəflər arasında ticari sövdələşmələrdə aktivin mübadilə edildiyi dəyərdir. Binalar üzrə ədalətli dəyər müstəqil kənar qiymətləndirici tərəfindən vaxtaşırı keçirilən (adətən üç ildən bir dəfədən az olmayaraq) qiymətləndirmə ilə müəyyənləşdirilir (amortizasiya ayırmaları çıxılmaqla). Yenidənqiymətləndirmə tarixinə yığılmış istənilən amortizasiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidənqiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərləri amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir.

İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. İlkin dəyərə həmçinin valyuta ilə alınmış əsas vəsaitlərin hedcinqi üzrə kapitala keçirilən pul vəsaitlərinin axını üzrə mənfəət və zərərlər də daxil edilir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Şirkətə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xərcləri o dövrün mənfəət və zərər haqqında hesabatında əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmişdir.

Torpaq və binaların yenidənqiymətləndirilməsi üzrə balans dəyərinin artması kapitalın tərkibində sair ehtiyatlar (rezervlər) hesabına aid edilir. Balans dəyərinin həmin aktiv üzrə əvvəlki yenidənqiymətləndirmə artımı hədləri daxilində azalması birbaşa kapitalın tərkibində ədalətli dəyər üzrə ehtiyatlar (rezervlər) hesabına aid edilir; balans dəyərinin qalan bütün azalmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

Hər il aktivin yenidənqiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları (amortizasiya ayırmaları mənfəət və zərər haqqında hesabatda əks etdirilir) və aktivin ilkin balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları arasındakı fərq, ədalətli dəyər üzrə ehtiyat (rezerv) hesabından "Bölüşdürülməmiş mənfəət" hesabına keçirilir.

### 5. Amortizasiya

Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır. Digər əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə, aktivlərin qalıq dəyərinə və ya yenidənqiymətləndirilmiş dəyərinə vurmaqla həyata keçirilir. Faydalı istismar müddəti və ya illik amortizasiya dərəcələri aşağıdakı qaydada müəyyən edilir:

- binalar, tikintilər və qurğular – 5%
- maşınlar və avadanlıq – 30%
- yüksək texnologiyalar məhsulu olan hesablama texnikası üzrə - 28%
- nəqliyyat vasitələri - 29%
- qeyri-maddi aktivlər – istifadə müddəti məlum olmayanlar üçün 13, istifadə müddəti məlum olanlar üçün isə illər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə;
- digər əsas vəsaitlər – 30%-dək;

Aktivlərin ləğvedilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.

Əsas vəsaitlərin xaricolmasından mənfət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

## 6. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər ilkin dəyərlə, yığılmış amortizasiya və hər hansı qiymətdəndüşmə üzrə zərər çıxılmaqla uçota alınır. Faydalı istifadə müddəti qeyri-müəyyən olan qeyri maddi aktivlər istisna olmaqla bütün digər qeyri-maddi aktivlərin amortizasiyası faydalı istifadə müddətləri üzrə düzxətt metodundan istifadə etməklə Mənfəət və Zərər haqqında Hesabatda əks olunur. Kapitallaşdırılmış qeyri-maddi aktivlər üzrə sonrakı məsrəflər yalnız aid olduğu xüsusi aktivdə əks olunan gələcək iqtisadi səmərəni artırarsa kapitallaşdırılır. Lisenziyalar hər hansı bir fəaliyyət növünə dövlət orqanları tərəfindən verilən xüsusi icazələr təşkil edir və verildiyi faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən arnortizasiya olunur.

## 7. Aktivlərin qiymətdən düşməsi

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır.amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans fəyətinin bu aktivlərin əvəzinin ödənilmə dəyərinin olmamasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən düşmə zərəri aktivin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbləğində tanınır. Əvəzinin ödənilməsi dəyəri aşağıdakı iki meyarlardan daha böyük olan məbləğlərdən biridir:

Aktivlərin satışı üzrə xərclər çıxılmaqla ədalətli dəyər;

İstifadə edilmə dəyəri.

Aktivlərin qiymətdən düşməsi məqsədləri üçün aktivlər pul axınlarını eyniləşdirən qruplaşdırma qaydasında ən kiçik qruplara bölünürlər.

## 8. İnvestisiyalar

Mərkəz özünün investisiyalarını aşağıdakı şəkildə təsnifləşdirir:

Ədalətli dəyərin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri;
Borc vəsaitləri və debitor borcları;
İnvestisiyalar;
Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri.

Təsnifləşdirmə investisiyaların hansı məqsədlə alınmasından asılıdır. Rəhbərlik investisiyaların təsnifləşdirilməsini onların ilkin tanınması zamanı müəyyən edir və hər bir hesabat tarixinə onları yenidən nəzərdən keçirir.Ədalətli dəyərin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri - bu kateqoriya iki alt kateqoriyaya bölünür: ticarət üçün nəzərdə tutulmuş maliyyə aktivləri və ilkin tanınmış ədalətli dəyərin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri.

Maliyyə aktivləri bu kateqoriyaya o zaman aid edilir ki, onlar yaxın gələcəkdə satış üçün nəzərdə tutulmuşdur və onlar rəhbərlik tərəfindən belə ifadə edilmişdir. Törəmə maliyyə alətləri də həmçinin satış üçün nəzərdə tutulmuş hesab edilirlər ki, onlar hedcinqləşdirmə alətləri deyildirlər. Əgər bu aktivlər satış üçün nəzərdə tutulmuşlarsa və ya onların satılması balans hesabatı tarixindən bir ildən artıq olmayan müddətdə nəzərdə tutulmuşdursa, bu kateqoriyanın aktivləri qısamüddətli aktivlər kimi təsnifləşdirilirlər.

*Borc vəsaitləri və debitor borcları* - Borc vəsaitləri və debitor borcları təsbit edilmiş və ya müəyyən edilə bilən ödəmə müddəti olan və aktiv bazarda qiyməti təyin edilməyən (kotirovka olunmayan) qeyri-törəmə maliyyə aktivləridir. Onlar o vaxt yaranırlar ki, Mərkəz debitor borclarının satılması niyyəti olmadan pul vəsaitlərini, malları və xidmətləri birbaşa debitora təqdim edir. Belə borc vəsaitləri və debitor borcları dövriyyə aktivləri kimi təsnifləşdirilirlər və qısamüddətli aktivlərə aid edilirlər (əgər ödəmə müddəti mühasibat balansının tərtib edilmə tarixindən bir ilədək müddətdən artıq deyildirsə). Borc vəsaitləri və debitor borcları mühasibat balansında "Debitor borcları" maddəsinin tərkibində əks etdirilmişlər.

*Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar* - Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar təsbit edilmiş ödəmə müddəti olan elə qeyri-törəmə maliyyə aktivləridir ki, onlarla münasibətdə ödəniş müddətinin çatmasına qədər Şirkətin onları saxlamağa qəti niyyəti və imkanı vardır. Hesabat dövründə Şirkətin bu kateqoriya üzrə heç bir investisiyası olmamışdır.

*Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri* - Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri bu kateqoriyada nəzərdə tutulmamış və ya digər kateqoriyalarda təsnifləşdirilməmiş qeyri-törəmə maliyyə alətləridir. Əgər rəhbərliyin bu aktivləri mühasi bat balansının tərtib edilmə tarixindən bir ilədək müddətə satmaq niyyəti yoxdursa, onlar qeyri-dövriyyə aktivlərinə aid edilirlər və uzunmüddətli aktivlərin tərkibində əks etdirilirlər.

**9. Ehtiyatlar**

Ehtiyatlar faktiki maya dəyəri ilə əks etdirilir. Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Maya dəyərinə material xərcləri, istehsal işçilərinin əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir.

Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edili

**10. Alıcılar və sifarişçilər debitor borcları**

Alıcılar və sifarişçilərə hesablaşmalar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Sonradan isə qiymətdən düşmə ehtiyatlarının (rezervlərinin) yaradılması metodu ilə amortizasiya olunmuş dəyər ilə uçota alınır.

Alıcılar və sifarişçilərin debitor borcları üzrə qiymətdən düşmə ehtiyyatları (rezervləri) o halda yaradılır ki, elə obyektiv sübutlar mövcuddur ki, Mərkəz tərəfindən ilkin maliyyələşmə nəticəsində yaranmış bütün debitor borclarının yığılması mümkün deyildir və ya bütün debitor borclarının ödənilməsi mümkünsüzdür.

Ehtiyatların (rezervlərin) məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axınının effektiv faiz dərəcəsi nəzərə alınan fərz edilən diskontlaşdırılmış dəyər arasındakı fərqdir. Ehtiyatların (rezervlərin) yaradılması və ya dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**11. Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nağd pul məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliklərə məruz qalan maddələrdir.

Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nağd pul vəsaitləri, yolda olan pul kğçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksək likvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

Pul vəsaitləri və onların ekvivalentlərinin istifadəsini tələb etməyən investisiya və maliyyələşdirmə üzrə əməliyyatlar pul vəsaitlərinin hərəkəti haqqında hesabatlara daxil edilmir.

Belə əməliyyatlar digər maliyyə hesabatlarında investisiya fəaliyyəti və maliyyələşdirmə üzrə fəaliyyət haqqında bütün münasib informasiyanın təqdim edilməsini təmin edən şəkildə açıqlanmalıdır.

**12. Təsisçi kapitalı**

Təsisçi payı kapital kimi təsnifləşdirilir.

**13. Kreditlər və borclar**

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır.

Konvertasiya olunan istiqrazların öhdəliklərə aid olan hissəsinin ədalətli dəyəri konvertasiya olunmayan istiqrazlara ekvivalent bazar faiz dərəcəsi tətbiq edilməklə müəyyən olunur. Bu məbləğ konvertasiyada ləğv olunma müddətinə və istiqrazların ödənmə müddətinin çatması müddətinə qədər amortizasiya olunan öhdəliyin dəyəri kimi əks etdirilir. Alınmış qalan vəsaitlər konvertasiyaya opsion kimi mənfəət vergisi effekti çıxılmaqla kapitala əlavə edilir.

Kreditlər və borclar, Mərkəz tərəfindən bu öhdəliklərin müddətinin mühasibat balansının tərtib edilmə müddətinədək ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olması halları istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.

**14. Mənfəət vergisi**

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlbedilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifadə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərini lkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfət vergisi uçotda əks etdirilmir (əgər, sövdələşmənin həyata keçirildiyi anda nə mühasibat mənfəətinə, nə də vergi yə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə).

Təxirə salınmış mənfət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanır.

Təxirə salınmış vergi aktivləri o zaman tanınır ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb edilәsi mənfəət əldə edilməsi ehtimalı vardır.

**15. Qarşıdakı xərclər və ödənişlər üzrə ehtiyatlar (rezervlər)**

Ətraf mühitin bərpa olunmasına, restrukturuziyasiya və məhkəmə çəkişmələrinə ehtiyyatlar (rezervlər) o zaman yaradılır ki:

Mərkəz keçmiş dövrlərdə baş vermiş hadisələr nəticəsində hər hansı hüquqi öhdəliklər daşıyır və ya könüllü surətdə öz üzərinə ənənəvi öhdəliklər qəbul etmişdir;

Ehtimallar vardır ki, bu öhdəliklərin səhmana salınması üçün pul vəsaitlərinin axını labüddür;

Bu öhdəliklərin məbləği etibarlı surətdə hesablana bilir.

Restrukturizasuya xərcləri üzrə ehtiyyatlara icarə müqavilələrinin vaxtından əvvəl ləğv edilməsinə görə cərimə sanksiyaları və işçilərə ödənilən işdən çıxma müavinətləri daxildir. Gələcək dövrlərin əməliyyat zərərləri üzrə ehtiyatlar yaradılmır.

## 16. Gəlirin tanınması

**Gəlir təşkilatın hesabat dövründə həyata keçirdiyi fəaliyyəti ilə bağlı müvafiq olaraq aşağıdakı qaydada tanınır:**

- "Vergilər və məcburi ödənişlər üzrə qeyri-birja gəlirləri";
- "Birja əməliyyatlarından gəlirlər"(Əsas əməliyyat gəlirləri);
- "Qeyri-birja əməliyyatlarından gəlirlər" (Dövlət büdcəsindən daxil olan vəsaitlər);
- "Sair gəlirlər".

## 17. İcarə

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir. Əməliyyat icarəsi müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

## 18. Maliyyə risklərinin idarə edilməsi

### 18.1. Maliyyə risklərinin faktorları

Mərkəzin fəaliyyəti bir sıra maliyyə risklərinə meyillidir: bazar riski (valyuta riskləri, faiz dərəcələrinin dəyişməsinin ədalətli dəyərə təsir riski və qiymət riski daxil olmaqla); kredit riski; likvidlik riski və faiz dərəcələrinin dəyişməsinin pul vəsaitləri axınına təsiri riski. Mərkəzin risklərin idarə olunması üzrə proqramı, maliyyə risklərinin qabaqcadan müəyyən edilə bilinməməsi amilinə cəmləşdirilmişdir (fokusuna yığılmışdır) və Mərkəzin fəaliyyətinin maliyyə nəticələrinə potensial əlverişsiz təsirinin minimallaşdırılmasına yönəldilmişdir. Mərkəz müəyyən risklərin hedcinqləşdirilməsi üçün törəmə maliyyə alətlərindən istifadə edir.

(a) Bazar riski, valyuta riski - Mərkəz beynəlxalq iqtisadi əlaqələrə malikdir və ona görə də, xarici valyuta kurslarının (əsasən, ABŞ dolları, avro, Rus rublu və s.) dəyişməsindən valyuta risklərinə meyillidir. Gələcək kommersiya sövdələşmələri, tanınmış aktivlər və öhdəliklər, həmçinin xarici şirkətlərə netto-investisiyalara münasibətdə mübadilə kurslarının dəyişməsi riski mövcuddur.

(b) Qiymət riski - Mərkəz göstərdiyi xidmətlər üzrə qiymət riskinə mübtəla deyildir. Analoji xidmətlər bazarında faktiki rəqabətin olmaması buna əsas verir.

(c) Kredit riski - Mərkəz əhəmiyyətli kredit risklərinə mübtəla deyildir. Törəmə alətlərlə sövdələşmələr və pul əməliyyatları yalnız yüksək ödəmə qabiliyyəti olan maliyyə institutları ilə aparılır. Şirkət tərəfindən heç bir istisnaya yol vermədən bütün maliyyə institutları üçün kredit riskini məhdudlaşdıran prosedurlar işlənmişdir.

(d) Likvidlik riski - Likvidlik riskinin ehtiyatlıqla idarə edilməsi pul vəsaitləri və dövriyyədə olan qiymətli kağızların kifayət qədər həcminin saxlanmasını, açılmış kredit xəttləri vəsitəsilə adekvat maliyyələşmə imkanlarını və ortaya çıxa biləcək disbalans hallarında operativ idarəetmə imkanlarını nəzərdə tutur.

Faiz dərəcəsinin dəyişməsinin pul vəsaitləri axınına və ədalətli dəyərə təsiri riski - Mərkəzfaiz gəliri gətirən əhəmiyyətli məbləğdə aktivlərə malik olduğundan, mənfəət və pul vəsaitlərinin əməliyyat axınları, əsasən bazar faiz dərəcələrinin dəyişməsindən asılıdır.

**19. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri**

Mərkəz növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və fərziyyələr irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

**20. Müştəri debitor borclarının dəyərsizləşməsi üzrə zərərlər**

Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

**21 Binaların yenidən qiymətləndirilməsi**

Mərkəzin balansında olan bina yenidən qiymətləndirilməsi aparılmamışdır.

**22. Vergi qanunvericiliyi**

Azərbaycan Respublikasının vergi, sosial sığorta, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə məruz qalır.

**23. Mənfəətin istifadəsi**

MHBS və Azərbaycan Respublikasının vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması çərçivəsində aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti zaman fərqləri əmələ gəlir. Bu müvəqqəti zaman fərqləri üzrə dövriyyələrin vergi təsiri cari ilin sonuna mövcud olmuş mənfəət vergisi dərəcəsində 20 %-lə qeydə alınır. Hazırki maliyyə hesabatlarında təxirə salınmış vergi aktivləri və ya öhdəlikləri hesablanmamış və nəzərə alınmamışdır.

Mərkəz hesabat ili üzrə həm dövlət büdcəsindən həm də sahibkarlıq fəaliyyətindən gəlir əldə etmişdir. Dövlət büdcəsindən daxil olan vəsait mənfəət vergisinə cəlb olunmamışdır.

Əsas əməliyyat gəlirləri xərclər çıxılmaqla mənfəət vergisinə cəlb edilir

**24. Şərti öhdəliklər**

***Məhkəmə prosedurları.*** Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Mərkəzə qarşı irəli sürülə bilər. Təşkilatın Rəhbərliyi öz təxminlərinə, daxili və kənar peşəkarların məsləhətlərinə

əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında hər hansı ehtiyat yaradılmamışdır.

***Vergi qanunvericiliyi***. Mərkəzin fəalyyət göstərdiyi Azərbaycan Respublikasında tətbiq edilən vergi, valyuta və gömrük qanunvericiliyində davamlı islahatlar aparılması səbəbindən bu sahə müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır.

Mərkəzin rəhbərliyinin işgüzar fəaliyyətinə dair rəyi, bəzən vergi orqanlarının rəyi ilə üst-üstə düşməyə bilər. Müəyyən əməliyyat məsələlərinə vergi orqanları tərəfindən etiraz edilərsə, Mərkəzin hazırkı və keçmiş əməliyyatlarına cərimələr tətbiq edilə bilər. 31 dekabr 2016-cı il tarixində tamamlanan maliyyə ilindən başlayaraq vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Azərbaycan Respublikası Vergi Məcəlləsinin bu maddəsi irəliyə dönümlü olaraq tətbiq edilir, yəni 2016-cı ildən əvvəlki maliyyə illərinə aid edilmir. Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər. Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Mərkəzin mövqeləri qorunacaqdır. Müvafiq olaraq, 31 dekabr 2023-cü il tarixinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır.

***Kapital məsrəfləri ilə bağlı öhdəliklər.*** 31 dekabr 2023-cü il tarixinə Mərkəzin kapital məsrəfləri ilə bağlı əhəmiyyətli öhdəlikləri olmamışdır.

***Əməliyyat lizinqi ilə bağlı öhdəliklər.*** 31 dekabr 2023-cü il tarixinə Mərkəzin ləğv oluna bilməyən əməliyyat lizinq müqaviləsi üzrə əhəmiyyətli öhdəlikləri olmamışdır

**25. Əlaqəli tərəflərlə əməliyyatlar**

Hazırki maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

**26. Hesabat dövründən sonrakı hadisələr:** Hesabat tarixindən sonar maliyyə hesabatlarına əhəmiyyətli təsir edə biləcək hadisələr baş verməmişdir.

## MALİYYƏ HESABATLARINA DAİR İZAHLI QEYDLƏR

### 1. Qısamüddətli aktivlər

### 1.1 Pul vəsaitləri və onların ekvivalentləri

| s/s | Bankın adı | hesabın tipi | Hesabın valyutası | Bank hesabları | Valyuta ilə | Manatla |
|---|---|---|---|---|---|---|
| 1 | Kapital Bank ASC Mərkəz filialı | cari büdcə | AZN | AZ76AIIB38070039440419519102 | 0.45 | 0.45 |
| 2 | | cari büdcədən kənar | AZN | AZ13AIIB38070019440419519102 | 0.86 | 0.86 |
| 3 | | cari (nizamnamə) | AZN | AZ82AIIB38070029440419519105 | 41 929.39 | 41 929.39 |
| 4 | | cari | AZN | AZ93AIIB38070029440419519102 | - | - |
| 5 | | Biznes kart | AZN | 4172 **** **** 1458 | 1 148.61 | 1 148.61 |
| 6 | | cari büdcədən kənar | AZN | AZ29AIIB38070019440419519105 | 86 777.14 | 86 777.14 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 7 | Kapital Bank ASC Səbail filialı | cari büdcədən kənar | AZN | AZ12AIIB40060019440419519102 | - | - |
| 8 | | cari | EUR | AZ96AIIB38170019780419519105 | 4.40 | 8.26 |
| 9 | | cari (nizamnamə) | USD | AZ19AIIB38170018400419519105 | 90306.41 | 153 520.90 |
| 10 | Paşa Bank ASC | cari | AZN | AZ93AIIB38070029440419519102 | - | - |
| 11 | | cari | AZN | AZ89PAHA38060AZNHC0100104859 | - | - |
| Cəmi | | | | | - | 283 385.61 |

## XƏZİNƏ HESAB KİTABI № 8887601

Baş kredit sərəncamçısı: "Aqrar Tədqiqatlar Mərkəzi" Publik Hüquqi Şəxs
Maliyyə orqanının adı: 2 saylı xəzinədarlıq idarəsi
Fond : 1-Azərbaycan Respublikasının Büdcəsi (mərkəz)
Dövrü: 01.01.2023 – 31.12.2023
Azərbaycan manatı

| s/s | Funksional təsnifat | İqtisadi təsnifat | İllik Büdcə | Açılmış maliyyələşmə | Xərc | Resurs qalığı | Limit qalığı |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| 1 | (Ümumi dövlət xidmətləri üzrə tətbiqi tədqiqatlar) | 253100 (Dövlət müəssisələrinə subsidiya) | 1 031 791.89 | 1 031 791.89 | 1 031 791.89 | 0.00 | 0.00 |
| | | | | | | | |
| Cəmi: | | | 1 031 791.89 | 1 031 791.89 | 1 031 791.89 | 0.00 | 0.00 |

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 901 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"na uyğun olaraq dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi üzrə bir tərəfdən **Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi,** digər tərəfdən dövlət adından yaradılan **"Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxs** arasında 19 yanvar 2023-cü il tarixli müqavilə bağlanmışdır.

Bağlanmış müqaviləyə əsasən publik hüquqi şəxs nizamnaməsinə müvafiq olaraq nəzərdə tutulan işlərin, layihələrin, xidmətlərin və proqramların həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2023-cü ilin dövlət büdcəsinin xərclərinin funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində ayrılan vəsaitin (bundan sonra – məqsədli vəsait) icrası məqsədilə bu Müqavilənin ayrılmaz tərkib hissəsi olan əlavəsində (1 nömrəli əlavə) göstərilən tədbirlər üçün Qaydaya uyğun olaraq publik hüquqi şəxs dövlət sifarişinin icrasını və ondan irəli gələn digər öhdəlikləri qəbul edir.

Müqavilədə göstərilən tədbirlərin maliyyələşdirilməsi 2022-ci ildə alınmış, lakin publik hüquqi şəxs tərəfindən tam istifadə olunmamış onun bank hesabında 31.12. 2022-ci il tarixinə olan 1222 (min iki yüz iyirmi iki) manat məbləğində qalıq vəsait və dövlət büdcəsindən ayrılacaq 1031792 (bir milyon otuz bir min yeddi yüz doxsan iki) manat məbləğində vəsait, cəmi 1033014 (bir milyon otuz üç min on dörd) manat vəsait hesabına həyata keçirir.

## 1.2 Ehtiyatlar

| Göstəricilər | Məbləğ |
|---|---|
| Xammal və materiallar | 4 168.42 |
| Sair ehtiyatlar | 6 195.10 |
| **YEKUNU** | **10 363.52** |

## 1.3 Sair qisamüddətli aktivlər

| Göstəricilər | Məbləğ |
|---|---|
| Sair qısamüddətli aktivlər (Azpetrol MMC) | 612.00 |
| **YEKUNU** | **612.00** |

## 2. Uzunmüddətli aktivlər

### 2.1 Torpaq, tikili və avadanlıqlar və digər əsas vəsaitlər

| s/s | Göstəricilər | Binalar | Maşın və avadanlıqlar | Hesablama texnikası | Nəqliyyat vasitələri | Digər əsas vasitələr | cəmi |
|---|---|---|---|---|---|---|---|
| 1 | İlin əvvəlinə ilkin dəyər | 4 952,95 | 1 421 723.12 | 479 767,56 | 161 300 | 6 254.00 | 2 073 997.63 |
| 2 | İl ərzində daxilolma | | | | | | |
| 3 | İl ərzində xaricolma | | | | | | |
| 4 | İlin sonuna ilkin dəyər (1+2-3) | 4 952,95 | 1 421 723.12 | 479 767,56 | 161 300 | 6 254.00 | 2 073 997.63 |
| | | | | | | | |
| 5 | İlin əvvəlinə yığılmış amortizasiya | 0.00 | 934 244.25 | 280 147,74 | 109 342.06 | 3 189.54 | 1 326 923.59 |
| 6 | İl ərzində hesablanmış amortizasiya | 0.00 | 146 243.66 | 55 972.08 | 15 067.80 | 919.34 | 218 202.88 |
| 7 | İl ərzində daxilolma | | | | | | |
| 8 | İl ərzində xaricolma (silinmə) | | | | | | |
| 9 | İlin sonuna yığılmış amortizasiya (5+6-7) | 0.00 | 1 080 487.91 | 336 119.82 | 124 409.86 | 4 108.88 | 1 545 126.47 |
| | | | | | | | |
| 10 | Xalis Balans Dəyəri (XBD) ilin əvvəlinə (1-5) | 4 952.95 | 487 478.87 | 199 619.82 | 5 1957.94 | 3 064.46 | 747 074.04 |
| 11 | Xalis Balans Dəyəri (XBD) ilin sonuna (4-8) | 4 952.95 | 341 235.21 | 143 647.74 | 36 890.14 | 2 145.12 | 528 871.16 |

### 2.2 Qeyri-maddi aktivlər

| № | Göstəricilər | Proqram təminatı | Kapitallaşdırma | Cəmi |
|---|---|---|---|---|
| 1 | **İlin əvvəlinə ilkin dəyər** | **2 897 844.00** | **685 580.00** | **3 583 424.00** |
| 2 | İl ərzində daxilolma | 685 580.00 | 0 | 685 580.00 |
| 3 | İlərzində xaricolma | 0 | 685 580.00 | 685 580.00 |
| 4 | **İlin sonuna ilkin dəyər** | **3 583 424.00** | **0** | **3 583 424.00** |
| | | | | |
| 5 | **İlin əvvəlinə yığılmış amortizasiya** | **300 034.82** | **0** | **300 034.82** |
| 6 | İl ərzində hesablanmış amortizasiya | 328 338.92 | 0 | 328 338.92 |
| 7 | İl ərzində xaricolma (silinmə) | | | |
| 8 | **İlin sonuna yığılmış amortizasiya(5+6-7)** | **628 373.74** | **0** | **628 373.74** |
| | | | | |
| 9 | **Xalis Balans Dəyəri (XBD) ilin əvvəlinə (1-5)** | **2 597 809.18** | **685 580.00** | **3 226 182.93** |
| 10 | **Xalis Balans Dəyəri (XBD) ilin sonuna (4-8)** | **2 955 050.26** | **0** | **2 955 050.26** |

### 3. Qısamüddətli öhdəliklər

| Göstəricilər | Məbləğ |
|---|---|
| Qısamüddətli kreditor borcları | 612.00 |
| Sair qısamüddətli öhdəliklər | 408 409.00 |
| **YEKUNU** | **409 021.00** |

### 4.Uzunmüddətli öhdəliklər

| Göstəricilər | Məbləğ |
|---|---|
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | 0.00 |
| **YEKUNU** | **0.00** |

### 5.Xalis aktivlər (Kapital)

### 5.1. Ödənilmiş nizamnamə (nominal) kapitalı

| Göstəricilər | Məbləğ |
|---|---|
| Ödənilmiş nizamnamə (nominal) kapitalı | 1 000 000 |
| **YEKUNU** | **1 000 000** |

### 5.2. Kapital ehtiyatları

| Göstəricilər | Məbləğ |
|---|---|
| 01.01.2023-cü il tarixinə qalıq | 4 042 993 |
| Daxil olmuşdur | 0.00 |
| Xalis aktivlərdə (kapitalda) artma (azalma) | (548 392) |
| **YEKUNU** | **3 494 600** |

### 5.3 Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)

| Göstəricilər | Məbləğ |
|---|---|
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət | (886 794) |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | (743 154) |
| **YEKUNU** | **(1 125 508)** |

**"Aqrar Tədqiqatlar Mərkəzi" Publik Hüquqi Şəxs-in rəhbərliyinə "Azəruçot" MMC tərəfindən aparılmış 2023-cü ilin maliyyə hesabatlarının auditinin nəticələrinə dair Təklif və tövsiyyələr**

1. Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən " *uçot siyasətinin*" müəyyən olunmasını və təsdiq edilməsini təmin etmək.

2.Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun Mühasibat uçotunun aparılmasını təmin etmək.

3. Mühasibat uçotunu ilkin uçot sənədləri əsasında, mühasibat uçotu registrlərini tərtib etməklə fasiləsiz həyata keçirmək.

4. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 18 yanvar 2016-cı il tarixli Q-02 nömrəli Qərarı ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması Qaydası"na uyğun olaraq mühasibat uçotunun aparılmasını təmin etmək.

5.Uçotun aparılmasında beynəlxalq standartlara və qüvvədə olan qaydalara əsaslanan proqram təminantlarının tətbiqini təmin etmək.

6."Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1059-VIQD nömrəli Qanununun 3.1-1.2 maddəsinə əsasən "illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını bu Qanuna uyğun olaraq dərc etməli olan publik hüquqi şəxslərdə mühasibat uçotu elektron formada aparılmalıdır. Mühasibat uçotu subyektlərində Elektron mühasibat uçotunun tətbiqi uçot siyasətinin işlənib hazırlanmasını,təsdiq olunmasını, balansın saflaşdırılmasını (aktiv və öhdəliklərin inventarizasiyasının keçirilməsini, inventarizasiyanın nəticəsi üzrə prosesin tamamlanmasını, uçotda əks etdirilməsni və yekun dəqiqləşdirilmiş balansın (aralıq) tərtib olunmasını və sair.), amortizasiya olunan aktivlərin dəqiqləşdirilməsini və amortizasiyanın hesablanması metodunun müəyyənləşdirilməsini tələb edir.

7. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun illik maliyyə hesabatlarını tərtib edən təşkilatlarda əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq edilən amortizasiya normalarına uyğun köhnəlmənin hesablanması.

8. Debitor-kreditor borclarının üzləşmə aktları ilə rəsmiləşdirilməsi və minimuma endirilməsini təmin etmək.

9. Aktivlərin və öhdəliklərin inventarizasiyasını Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 2013-cü il 16 iyul tarixli Q-17 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aktivlərin və öhdəliklərin inventarizasiyası Qaydaları"nın tələblərinə uyğun olaraq hər il aparılmasını təmin etmək.

10. Təsərrüfat ehtiyacları üçün malların (iş və xidmətlərin) satınalınması zamanı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməsi.

11. Müvafiq vəsaitlərin təyinatı üzrə istifadə edilməsini həyata keçirmək.

12. İşçilərə ödənilən vəsaitdən gəlir vergisi, məcburi dövlət sosial sığorta haqqı və işsizlikdən sığorta haqqı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, "Sosial sığorta haqqında", "İşsizlikdən sığorta haqqında"və "İcbari tibbi sıgorta haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tutulmasını təmin etmək.

13. Maliyyə, vergi və digər hesabatların tam və vaxtında tərtib və təqdim olunmasını təmin etmək.

14. Dövlət satınalmalır ilə bağlı malların (iş və xidmətlərin) ehtimal olunan qiymətlərinin düzgün müəyyən edilməsi məqsədilə istehlak bazarında mütəmadi olaraq malların (iş və xidmətlərin) qiymətlərinin monitorinqinin aparılması.

15. Dövlət satınalmaları sahəsində şəffaflığın artırılması, dövlət vəsaitlərindən səmərəli və qənaətlə istifadənin təmin edilməsi.

16. Satınalmaların qanunvericiliyə uyğun təşkili məqsədilə keçirilən satınalmaların sağlam rəqabət mühitində keçirilməsinə, mal göndərənlərə (podratçılara) bərabər şəraitin yaradılmasına, ayrı-seçkiliyə yol verilməməsini təmin etmək.

17. Malların (iş və xidmətlərin) ehtimal olunan və alış qiymətlərinin real bazar qiymətlərinə uyğun olmasını təmin etmə

**Təqdim etdi:**

**Direktor-auditor**

______________

**Eldar Təhməzov**

**qəbul etdi:**

**Direktor**

______________

**Rəşad Hüseynov**

**Baş mütəxəssis-mühasib**

______________

**Gülnar Hüseynova**

"Xidmətlər üzrə satınalma müqaviləsinin
nümunəvi forması"na
**5 nömrəli əlavə**

## Yekun təhvil-təslim aktı

Biz, aşağıda imza edənlər bir tərəfdən, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təsis edilmiş, hüquqi ünvanı AZ1025, Bakı şəhəri, Xətai rayonu, Süleyman Vəzirov küçəsi 91 olan, nizamnamə əsasında fəaliyyət göstərən Direktor Hüseynov Rəşad Faiq oğlu şəxsində təmsil olunan və bundan sonra *Satınalan təşkilat* adlanacaq "Aqrar Tədqiqatlar Mərkəzi" Publik Hüquqi Şəxsi (VÖEN:1300663941) və digər tərəfdən Azərbaycan Respublikası qanunvericiliyinə əsasənn təsis edilmiş, hüquqi ünvanı AZ1025, Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi ev 18, mənzil 163 olan, nizamnamə əsasında fəaliyyət göstərən Direktor Təhməzov Eldar Azay oölu şəxsində təmsil olunan və bundan sonra *Təchizatçı* adlanacaq "Azəruçot" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 2007078631), arasında (bundan sonra ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər") **"2023-cü il üzrə maliyyə hesabatlarının müstəqil audit yoxlaması"** xidmətlərinin satınalınması barədə 23 yanvar 2025-ci il tarixində və Bakı şəhərində bağlanılmış vergilər daxil 1700.00 (min yeddi yüz) manat məbləğli Müqaviləyə əsasən bununla hazırkı Aktı tərtib edərək təsdiq edirik ki, Müqavilə 24.01.2025 - 11.02.2025 - ci il tarixlərində icra edilmişdir.

| SATINALAN TƏŞKİLATIN NÜMAYƏNDƏSİ | TƏCHIZATÇININ NÜMAYƏNDƏSİ |
|---|---|
| (imza) | (imza) |
| **Baş mütəxəssis-mühasib** | **Baş mühasib** |
| **Gülnar Hüseynova** | **Rahib Kazımov** |

| SATINALAN TƏŞKİLATIN SƏLAHİYYƏTLİ ŞƏXSİ | TƏCHIZATÇININ SƏLAHİYYƏTLİ ŞƏXSİ |
|---|---|
| (imza və möhür) | (imza və möhür) |
| **Direktor** | **Direktor** |
| **Rəşad Hüseynov** | **Eldar Təhməzov** |

## Əlaqə:

(+994 12) 599-08-88

www.atm.gov.az

info@atm.gov.az

Süleyman Vəzirov küçəsi, 91
AZ1025 Bakı, Azərbaycan

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ